## *TARİXİN TƏDRİSİ METODİKASI*
## *МЕТОДИКА ПРЕПОДАВАНИЯ ИСТОРИИ*
## *METHODS TEACHING HISTORY*

*UOT 372.894(47)Az*

***Mübariz Mirəziz oğlu Əmirov***
*pedaqogika elmləri doktoru,*
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin*
*Ümumi tarix və tarixin tədrisi texnologiyası kafedrasının professoru,*
https://orcid.org/0009-0005-5011-2320

# ÜMUMTƏHSİL MƏKTƏBLƏRİNDƏ TARİX ÜZRƏ DƏRNƏKLƏRİN VƏ VİKTORİNALARIN TƏŞKİLİNƏ DAİR

***Мубариз Миразиз оглы Амиров***
*доктор педагогических наук,*
*профессор кафедры всеобщей истории и технологии преподавания истории*
*Азербайджанского Государственного Педагогического Университета*

# ОБ ОРГАНИЗАЦИИ КРУЖКОВ И ВИКТОРИН ПО ИСТОРИИ В ОБЩЕОБРАЗОВАТЕЛЬНЫХ ШКОЛАХ

***Mubariz Miraziz Amirov***
*doctor of pedagogical sciences, professor of the department of General history and technology of teaching history at*
*Azerbaijan State Pedagogical University*

# ON THE ORGANIZATION OF HISTORY CIRCUITS AND QUIZ PARTS IN GENERAL EDUCATIONAL SCHOOLS

**Xülasə.** Məqalədə mövzunun aktuallığı əsaslandırılıb. Dərsdənkənar tədbirlərin təlim-tərbiyəvi cəhətləri şərh edilib. Tarix üzrə dərnəklərin təşkili qaydalarına aydınlıq gətirilib. Tarix üzrə dərnəklərin həm didaktik, həm də tərbiyəvi cəhətləri müəyyənləşdirilib. Tarixi sevən şagirdlərin tarix dərnəklərinə və viktorinalara cəlb edilməsinin imkanları da işıqlandırılıb. Məqalədə viktorinaların təşkili qaydaları və onun VI-VII siniflərdə Azərbaycan tarixi kursu üzrə praktik nümunələri və verilib.
***Açar sözlər:*** *ümumtəhsil məktəbləri, viktorinalar, dərnəklə, təşkili qaydaları, tarix fənni, dərsdənkənar*

**Резюме.** В статье обоснована актуальность темы. Были разъяснены учебные и образовательные аспекты внеклассной деятельности. Уточнены правила организации исторических ассоциаций. Определены как дидактические, так и воспитательные аспекты исторических ассоциаций. Также подчеркиваются возможности привлечения учащихся, любящих историю, к историческим клубам и викторинам. В статье приведены правила организации викторины и ее практические примеры для курса истории Азербайджана в VI-VII классах.
***Ключевые слова:*** *общеобразовательные школы, викторины, кружки, правила организации, предмет истории, внеклассная работа*

**Summary.** The relevance of the topic is justified in the article. The training and educational aspects of the extracurricular activities were explained. The rules for the organization of history associations have been clarified. Both didactic and educational aspects of history associations have been determined. Possibilities of

engaging history-loving students in history clubs and quizzes are also highlighted. In the article, the rules for organizing quizzes and its practical examples for the history course of Azerbaijan in grades VI-VII are given.

***Key words****: secondary schools, quizzes, association, rules of organization, history subject, extracurricular*

Tarix dərnəkləri və viktorinalar hər bir sinifdə, həmçinin məktəbdə tarixə böyük maraq göstərən şagirdlərin cəlb edilməsi ilə təşkil edilir. Təsirli formullardan biri də tarix dərnəkləridir. O, şagirdlərin fərdi maraqlarını təmin etməyə, onların yaradıcılıq qabiliyyətlərini inkişaf etdirməyə, biliklərini genişləndirmək və dərinləşdirməyə, praktik fəaliyyətə cəlb etməyə, onların elmi araşdırmanın ilkin bacarıqlarını formalaşdırmağa kömək edir. Təcrübə göstərir ki, əgər hansısa bir mövzu fakültativ məşğələlərdə öyrənilirsə, onda bu mövzu üzrə dərnəklərin məşğələləri məqsədəuyğun deyil. "Tarix dərnəyi şagirdlərin daimi tərkibini birləşdirir, qabaqcadan təşkil edilmiş plan əsasında öz işini təşkil edir, müntəzəm məşğələlər keçirir" [1, s.97]. Dərnəyin yaradılması üçün müəllim məktəbdə ictimai-siyasi fəallığı ilə seçilən, ictimai və humanitar fənlərə xüsusi marağı olan şagirdlər cəlb edilməlidir. Dərnəyin təşkilində məktəbdə kollektiv tədbirlərin təşkilində tarixə dair gecələrdə, olimpiadalarda, konfranslarda, ekskursiyalarda, viktorinalarda fəal iştirak edən şagirdlərə üstünlük verilməlidir.

Dərnəyin müvəffəqiyyətli fəaliyyəti yalnız bir sıra sualların düzgün həlli hallarında mümkündür: onun sayı neçə ola bilər, onu eyni yaşda olan şagirdlərdən, yoxsa müxtəlif yaş qruplarından olanlardan təşkil etmək olar, müxtəlif yaşlı uşaqların işini necə uyğunlaşdırmaq olar, irəliləyiş və intizamdan asılı olaraq forma qoymaq olar, məktəblilərin məşğələlərə daimi marağını necə təmin etmək olar. Təcrübə göstərir ki, dərnəyin tərkibi müxtəlif ola bilər. Ancaq onun sayının 30 nəfərdən artıq olması arzu olunan deyil. O, həm də müxtəlif şagirdləri də əhatə edə bilər. Bu halda bir neçə bölmə formalaşdırmaq məqsədə uyğundur". Qabaqcıl məktəblərin təcrübəsi göstərir ki, dərnəkdə az intizamlı və ağır tərpənən şagirdlər daha özlərini yaxşı aparırlar. Adətən dərnəyə sədr və katib, büro və şura üzvləri seçilir. Şura üzvlərinin miqdarı və onlar arasında vəzifə bölgüsü hər məktəbin öz spesifik şəraitinə uyğun aparılır. Adətən dərnəyin və cəmiyyətin adı, nizamnaməsi, üzvlük biletləri və nişanları olur" [2, s. 38].

Dərnək işi məktəbliləri yaradıcılıq axtarışlarına yönəldir. Burda dərnəyə əyləncəli perspektivlərin (hamıya aydın əlçatan) qoyulması əhəmiyyətlidir. Bu, istənilən böyük və faydalı işlər ola bilər. Arxeoloji qazıntıların keçirilməsinə hazırlıq, doğma şəhəri azad etmiş hərbi hissənin tarixinin yazılışı, məktəb muzeyinin təşkili və s.

Məktəb tarix dərnəyinin iş prinsipləri:

1) Müəllimin rəhbərliyi;
2) Tədqiqat metodlarının tətbiqi;
3) Mövzunun dəqiq hazırlanması;
4) Dərnək üçün nəticələrin tərtibatı və s.

Dərnək üzvlərinin fəaliyyətinin nəticələri bütün şagirdlərinin hamılıqla uğurlu olması dərnək fəaliyyətindən asılıdır. Dərnək ictimai xarakter əhəmiyyətlidir. Dərnəklə müqayisədə şagird qrupları müxtəlif sinifdən olan çox sayda şagirdləri əhatə edir və daha geniş miqyaslı və müxtəlif fəaliyyəti həyata keçirməyə imkan verir. Son illərdə şagird qrupları daha geniş yayılıb. Tarix müəllimi tərəfindən yaradılan və idarə olunan məktəbli birlikləri və b. müxtəlif sinif şagirdlərini birləşdirir. Bu, şagird özünüidarəsi prinsiplərinə uyğun təşkil edilmişdir. Öz təbiəti, strukturu və məsələlərinin qoyuluşuna görə bu şagird qrupları tarix üzrə, qismən də olsa, dərnəklərə oxşayır. Amma, bir qayda olaraq, onların fəaliyyəti müasirliyə həsr edilir.

Metodik ədəbiyyatın, eləcə də məktəb təcrübəsinin öyrənilib ümumiləşdirilməsi göstərir ki, Respublikamızın qabaqcıl tarix müəllimləri tədris ilini planlaşdırarkən dərsdənkənar tədbirlər sırasında tarix üzrə viktorinalara da geniş yer verirlər. Viktorinalar – sual-cavab gecələri V-XI siniflərdə (könüllülük prinsipi əsas götürülməklə) tədris ili ərzində iki dəfə keçirilir. Birincisi, birinci yarımildə, ikincisi, ikinci yarımildə. Viktorinalar, adətən, eyni siniflərdə oxuyan şagirdlər arasında keçirilir. Məsələn, birinci yarımildə həm Azərbaycan tarixinin, həm də ümumi tarixin keçilmiş mövzuları əsasında aparılmalıdır.

"Viktorina qruplarının üzvlərinə suallar toplusu bir ay əvvəl müəllim tərəfindən verilir. Viktorinanın keçiriləcəyi gün məktəbin elanlar lövhəsində yazılır. Viktorinada fərqlənən şagirdlər məktəb rəhbərləri tərəfindən mükafatlandırılırlar" [3, s.179].

**VI sinfin Azərbaycan tarixi kursu üzrə keçiriləcək viktorinanın didaktik materialları**

**Suallar**

1) İlk insan dəstələri necə adlanırdı?
2) Azərbaycanın qədim tarixi hansı qaynaqlar əsasında yazılmışdır?
3) Qədim insanların ilk əmək alətləri hansılardır?
4) Azıx mağarasından tapılmış ayı kəllələri üzərində olan cızıqlar nəyi bildirir?
5) Orta Paleoliti başqa necə adlandırırlar?
6) Neandertal insan tipi hansı dövrdə formalaşmışdır?
7) "Ağıllı insan" (Homo sapiens) hansı dövrdə yaranmışdır?
8) Anaxaqanlığı (matriarxat) hansı dövrdə yaranmışdır?
9) Ulu icma qəbilə icması ilə əvəz olunmuşdur?
10) Ox və kaman hansı hansı dövrdə yaranmışdır?
11) Hansı dövrdə insanlar heyvanları əhliləşdirməyə başladılar?
12) İlk əkinçilik vərdişləri hansı dövrdə yaranmışdır?
13) İlkin toxuculuq hansı dövrdə yarandı?
14) Hansı dövrdə insanlar torpağı toxa ilə yumşaldırdılar?
15) Hansı dövrdə əhali binaları çiy kərpic və möhrədən inşa edirdi?
16) Kür-Araz mədəniyyəti hansı dövrü əhatə edir?
17) Toxa əkinçiliyini xış əkinçiliyi əvəz etmişdir?
18) Birinci böyük ictimai əmək bölgüsü meydana gəldi?
19) Anaxaqanlığını ataxaqanlığı hansı dövrdə əvəz etmişdir?
20) İkinci böyük ictimai əmək bölgüsü nə zaman baş vermişdir?
21) Üçüncü böyük ictimai əmək bölgüsü nə zaman baş vermişdir?
22) E. ə. IX əsrdə Urmiya gölü ətrafında hansı dövlət yaranmışdır?
23) Mannanın əsas hissəsini təşkil edən Zamua vilayəti kimlərin vətəni idi
24) Tuqdamme hansı padşahlığın hökmdarı olmuşdur?
25) Manna dövləti hansı dövlət tərəfindən işğal olunmuşdur?
26) Əhəmənilər dövlətinin əsası kim tərəfindən qoyulmuşdur?
27) Makedoniyalı İskəndər kimi Midiya satrapı təyin etdi?
28) Atropatena dövlətinin paytaxtı hansı şəhər idi?
29) Atropatena ərazisindən tapılan pullar kimin adından kəsilmişdir?
30) Maqneziya döyüşü nə zaman baş vermişdir?
31) Zərdüşt dininin kahini necə adlanırdı?
32) Albaniyada padşahdan sonra ən hörmətli şəxs kim idi?
33) e.ə. 66-cı ildə baş verən döyüş nə ilə nəticələndi?
34) e.ə. 65-ci ildə baş verən döyüşdə alban döyüşçülərinə kim başçılıq edirdi?
35) Qobustan kitabəsi hansı illəri əhatə edir? (Romalıların burda olması haqqında olan kitabədən söhbət gedir)
36) Atropatena 227-ci ildə hansı dövlətdən asılı vəziyyətə düşdü?
37) 260-cı ildə baş verən döyüşdə kim qalib gəldi?
38) 371-ci ildə baş verən döyüşdə kim qalib gəldi?
39) Hansı Alban çarı əhaliyə zorla xristianlığı qəbul etdirdi?
40) Amaras alban abidəsi Azərbaycanın hansı rayonunda yerləşir?

**VI sinfin Azərbaycan tarixi kursu üzrə keçiriləcək viktorinanın didaktik materialları**

**Cavablar**

1) Ulu icma;
2) Arxeoloji və yazılı qaynaqlar əsasında;
3) Sivri daş, yerqazan çubuq və dəyənək;
4) Qədim insanların dini ayinləri və heyvanlara inamı ilə bağlıdır;
5) Mustye mədəniyyəti;
6) Orta Paleolit dövründə;
7) Üst Paleolit dövründə;
8) Üst Paleolit dövründə;

9) Üst Paleolit dövründə;
10) Mezolit dövründə;
11) Mezolit dövründə;
12) Neolit dövründə;
13) Eneolit dövründə;
14) Erkən tunc dövrü;
15) Erkən tunc dövrü;
16) Erkən tunc dövrü;
17) Erkən tunc dövrü;
18) Erkən tunc dövrü;
19) Erkən tunc dövrü;
20) Orta tunc dövründə;
21) Son tunc dövründə;
22) Manna dövləti;
23) Lullubilərin vətəni idi;
24) İskit padşahlığının;
25) Midiya dövləti tərəfindən;
26) II Kir tərəfindən;
27) Atropatı;
28) Qazaka;
29) Makedoniyalı İskəndərin adından;
30) e.ə. 190-cı ildə Roma ilə Selevkilər arasında;
31) Maq;
32) Ay məbədinin kahini;
33) Roma qalib gəldi;
34) Kozis;
35) 84-96-cı illəri;
36) Parfiya dövlətindən;
37) I Şapur;
38) Roma;
39) III Vaçaqan;
40) Xocavənd rayonunda.

**VI sinfin Qədim dünya tarixi kursu üzrə keçiriləcək viktorinanın didaktik materialları:**

**Suallar**

1. Bəşər cəmiyyəti hansı inkişaf mərhələlərindən keçmişdir?
2. Orta Paleolitdə hansı insan tipi yaranmışdır?
3. İlk metal cəmiyyətin hansı inkişaf dövründə kəşf olunmuşdur?
4. Daş dövrü hansı mərhələdən ibarətdir?
5. Misir harada yerləşir?
6. Şadufdan nə vaxt istifadə olunur?
7. Vahid Misir dövləti nə vaxt yaranıb?
8. Misirin ilk paytaxtı hara olub?
9. Misir dövlətinin hökmdarı necə adlanırdı?
10. Misirdə "günəş oğlu" kimə deyirdilər?
11. Qədim Misirdə qulları necə adlandırırdılar?
12. Hansı Misir hökmdarı hetləri məğlub etmişdi?
13. Misirdə baş allah necə adlanırdı?
14. İlk piramida hansı firona məxsusdur?
15. Misirlər nəyi ixtira etmişlər?
16. Mesapatomiya yunan dilində nə deməkdir?
17. Şumer şəhər-dövlətlərində hökmdar necə adlanırdı?
18. Yunanlar Babil şəhərini necə adlandırırdılar?
19. Hammurapi qanunları neçə maddədən ibarətdir?
20. Qədim yunanlar Finikiyanı necə adlandırırdılar?
21. Finikiyada hansı şəhər-dövlətləri yaranmışdır?
22. Hansı şəhərə "aslanlar yuvası" deyirdilər?
23. Aşşur dövləti neçənci ildə süquta uğradıldı?
24. Midiya dövləti harada yerləşirdi?
25. "Midiya yağı" nəyi adlandırırdılar?
26. Zərdüştlük nə vaxt yaranmışdır?
27. "Darik" nədir?
28. Misir kahinləri hansı Əhməni hökmdarını Miri Fironu elan etmişlər?
29. Partiya dövlətinin əsasını hansı qəbilələr qoymuşdur?
30. Vahə nədir?
31. Vahid hun dövləti nə vaxt yaranmışdır?
32. Böyük Çin səddi nə məqsədlə inşa edilmişdir?
33. Hun imperiyası nə vaxt iki hissəyə parçalandı?
34. Çin tarixində "vuruşan padşahlar dövrü" hansı əsrlər adlanır?
35. Çində hansı çay "gəzən çay", "Çinin bəlası" adlandırılır?
36. Xan sülaləsi hansı üsyanın nəticəsində dağıldı?
37. Ari tayfaları nə vaxt Hindistanda məskunlaşıblar?
38. Hindistanda "yad", "düşmən" kimləri adlandırırdılar?
39. Cənubi Yunanıstan necə adlanırdı?

40. Arora nədir?
41. Demosla aaristokratları kim barışdırmışdır?
42. Falanqa nədir?
43. Marafon döyüşü nə vaxt və kimlər arasında baş vermişdir?
44. "İlliada və Odisseya" dastanlarını kim yaratmışdır?
45. Günəş allahı necə adlanırdı?
46. Kimi tarixin atası adlandırırdılar?
47. Yunanlar il hesabını nə vaxt aparırdılar?
48. İlk tragediya müəllifini kimdir?
49. Makedoniyalı İsgəndər hansı döyüşdə ilk sərkərdəlik məharətini nümayiş etdirdi?
50. Hündürlüyü metr olan mayak hansı şəhərdə yerləşir?
51. Roma şəhərinin əsası neçənci ildə qoyulmuşdur?
52. Roma patrisilərinin "ağsaqqallar şurası" necə adlanır?
53. Roma-Karfogen müharibələri neçənci illəri əhatə edir?
54. "Püşk atılmışdı" ifadəsini kim işlətmişdir?
55. Kimin dövründə Roma dövləti imperiya adlandırılırdı?
56. Roma imperiyası nə vaxt II hissəyə parçalandı?
57. Qərbi Roma imperiyası neçənci ildə süqut etdi?
58. Romada qulları necə adlandırırdılar?

**VI sinfin Qədim dünya tarixi kursu üzrə keçiriləcək viktorinanın didaktik materialları**

**Cavablar**

1. İbtidai icma, quldarlıq, feodalizm və kapitalizm;
2. Neandertal;
3. Eneolit dövründə;
4. Paleolit, Mezolit, Neolit;
5. Afrikanın şimal-şərqində;
6. Hündürdə yerləşən tarlalara su vermək üçün;
7. E. ə. IV minilliyin sonunda;
8. Menfis;
9. Firon;
10. Firona;
11. Canlı ölülər;
12. II Ramzes;
13. Amon;
14. Firon Coserə;
15. Günəş və su saatını;
16. İkiçayarası;
17. Ensi yaxud luqal;
18. Vavilion;
19. 282 maddədən;
20. Foinike;
21. Tir, Bibl, Sidon;
22. Nineva şəhərini;
23. E. ə. 605-ci ildə;
24. İranın mərkəzində;
25. Nefti;
26. e. VII əsrdə;
27. Pul vahidi;
28. II Kambizi;
29. Parin qəbilələri;
30. Səhrada və çöldə suyu və yaşıllığı olan sahə;
31. E.ə.220-ci ildə;
32. Çinlərin hunların qarşısını almaq üçün;
33. E.ə.58-ci ildə;
34. e.ə. IV-III əsrlər;
35. Xuanxe çayını;
36. Sarısarıqlılar;
37. e.ə. II minillikdə;
38. Qulları;
39. Peloponnes;
40. Bazar meydanı;
41. Solon;
42. Sparta ordusu;
43. İranlılarla yunanlar arasında e. ə. 490-cı ildə;
44. Kor şair Homer;
45. Helios;
46. Heredotu;
47. e. ə. 776-cı ildən;
48. Esxil, Sofokl;
49. e. ə. 338-ci ildə Xeroneya döyüşündə;
50. İsgəndəriyyə;
51. e. ə. 753-cü ildə;
52. Senat;
53. E. ə. 264-146-cı illəri;
54. Yuli Sezar;
55. Oktavian Avqustun dövründən;
56. 395-ci ildə;
57. 476-cı il;
58. Daşınan əmək alətləri.

Nəticə olaraq deyə bilərik ki, ümumtəhsil məktəblərində tarix təliminin keyfiyyətinin yük-

səldilməsi üçün dərsdənkənar dərnəklərin və viktorinaların səmərəli təşkili XXI əsrin şəxsiyyətinin formalaşmasına stimul yaradır.

**Problemin aktuallığı**. Ümumtəhsil məktəblərində tarix təliminin keyfiyyətinin yüksəldilməsində, şagirdlərdə geniş dünyagörüşü formalaşdırılmasında müstəsna rolu olan dərnək və viktorinaların səmərəli təşkili üzrə iş sisteminin yaradılmasına çox böyük ehtiyac var.

**Problemin elmi yeniliyi**. Ümumtəhsil məktəblərində tarix üzrə dərnək və viktorinaların təşkili qaydaları, didaktik və tərbiyəvi təsiri şərh edilib.

**Problemin praktik əhəmiyyəti** ondan ibarətdir ki, ümumtəhsil məktəblərində tarix fənninin tədrisində dərsdənkənar işlərin kütləvi formalarından olan dərnək və viktorinaların təşkili ilə bağlı yaradılmış iş sistemindən tarix müəllimləri gündəlik pedaqoji fəaliyyətlərində istifadə edə bilərlər.

**Ədəbiyyat:**

1. Формы внеклассной работы по истории. Составители Е.М. Бердникова, И.З. Озерский, А.Н. Хмелев.- М., 1965, -375 с.
2. Методика преподавания истории и средней школе: С.А. Есипова, И.М. Лебедева, А.В. Дружсково и дч - М.: Просвещение, -1986, -297 с.
3. Воспитание школьников во внеурочное время. Под. редакций Л.К. Болясной. -М.: 1980, -317 с.

**E-mail:** mubariz1503@gmail.com

**Rəyçilər:** *ped.elm.dok., prof.* **İ.H. Cəbrayılov,**
*ped.ü.fəls.dok., dos.* **T.S. Paşayev**
**Redaksiyaya daxil olub:** 20.04.2023